# GÖYƏRÇİN

İSSN-0207-4710
2012-ci il
4





Hekayə



Şeir



Nağıl

Nağıl vaxtı

# AĞIL SINAĞI

*Hind nağılı*



Bir şahın gözünün ağı-qarası bir oğlu var idi. Şah ölüm ayağında oğlunu yanına çağırıb vəsiyyət etdi və tapşırdı ki, həmişə qoca məsləhətçinin sözünə bax.

Şahın ölümündən sonra şahzadə hakimiyyətə gəldi. Qoca məsləhətçinin sözlərinə diqqətlə qulaq asdı, ölkəni ədalətlə idarə etməyə başladı.

Saray adamları qoca məsləhətçinin paxıllığını çəkdilər, hər gün şaha onun haqqında pis sözlər dedilər, qocaldığını söylədilər.

Belə deyirlər ki, damcı da qayanı deşə bilər. Adamlar şahı inandırdılar ki, qocanı təqaüdə göndərmək, onun yerinə cavan bir məsləhətçi götürmək lazımdır.

Şah belə də etdi. Ilk günlər hər şey qaydasında idi. Bir gün şah ova çıxmışdı. Çox gəzəndən sonra əyalətdəki bağına getdi. Orada bir az dincəlib səfərini davam etdirdi. Itlərindən birini bağbana verib dedi ki, bunu bağda saxla. Nə vaxt sifariş sənə çatsa, onu mənə göndərərsən.

Şah evə qayıtdı. Aradan bir neçə ay keçdi. Şah saray adamlarını toplayıb onlara tapşırıqlar verdi. Cavan məsləhətçiyə isə dedi ki, gedib bağbanın yanındakı itdən bir xəbər gətirsin.

Cavan məsləhətçi bağbanın yanına gedib öyrəndi ki, it balalayıb. Tez qayıdıb bu haqda şaha məlumat verdi.

Şah soruşdu:

-İtin neçə balası olub?

-Bağban bunu demədi, hökmdarım.

Şah nəzakətlə dedi ki, zəhmət olmasa gedib itin neçə bala verdiyini öyrən.

Cavan məsləhətçi bağa gedib qayıtdı və xəbər gətirdi ki, bəs itin beş balası olub.

Rəssam
Fidan

Şah soruşdu:

-Bu balalardan neçəsi erkək, neçəsi dişidir?

Məsləhətçi gözünü döydü:

-Şahım, bu haqda bağban heç nə demədi.

Şah yenə nəzakətlə xahiş etdi ki, məsləhətçi gedib bunu öyrənsin.

Cavan məsləhətçi qan-tər içində qayıdıb gəldi və dedi ki, hökmdarım, küçüklərin üçü erkək, ikisi isə dişidir.

Şah dedi:

-Bağban bu küçüklərdən neçəsinin yaxşı ov iti olacağını söylədi?

Cavan məsləhətçi çaşıb qaldı. Şah onu bir neçə dəfə bağa göndərdi. Cavan məsləhətçinin ayaq üstə durmağa taqəti də qalmamışdı.

Şah qoca məsləhətçini çağırtdırıb göndərdi ki, ona bağbanın yanında qoyduğu it haqqında məlumat gətirsin.

Qoca məsləhətçi baş əyib getdi. Bağbanla söhbət etdi, itə, küçüklərə baxdı, onların nə yeməsi ilə maraqlandı.

Qoca məsləhətçi gəlib çıxdı. Şah saray adamlarının yanında ona suallar verdi. Qoca bütün sualları ətraflı cavablandırdı.

Şah qocanın ağlına, diqqətinə, məsuliyyətinə heyran qalmışdı.

O, üzünü saray adamlarına tutub dedi:

-Görürsünüz, bax əsl məsləhətçi belə olar. Siz məni dilə tutdunuz ki, qocanı cavanla əvəz edim. İndi kimin ağıllı olduğunu özünüz gördünüz.

Qoca haqqında şaha artıq-əskik məlumat verə-lər utandıqlarından başlarını aşağı saldılar.

Şah səriştəsiz cavanı vəzifəsindən azad etdi. Qoca məsləhətçi yenə də öz işinə qaytarıldı. Yenə də ölkənin işləri qaydaya düşdü.



*Tərcümə edib işləyəni: R.Y.Əliyev*